YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
03 iyul 2026-cı il, cümə
№ 114 (7181)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Qalib Liderə artan ümumxalq inamı



Bax səh. 2

## Bakı yeni qlobal geosiyasi xəritəni formalaşdırır

Bax səh. 5



Bax səh. 4

## Nəsimi rayonunda Polis Günü qeyd olundu

## YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb

Bax səh. 4



Bax səh. 3

## Leyla Əliyeva Yevlaxda...

## Mərkəzi Bank qaydaları dəyişdi

Bax səh. 6

## Erməni vandalizminin qanlı izləri - metro terroru

Bax səh. 6

## Dohada dolayı görüşlər...

Bax səh. 7

## Terrorizm bəşəriyyət üçün ciddi təhdid olaraq qalır

Bax səh. 7





## Çərçivə sazişi sülhü təmin edəcəkmi?

Bax səh. 7

# Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib. Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğulayıb. Dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxunub.



Akın Gürlek, həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını bildirib.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Səhiyyə Nazirliyinin Əsasnaməsi dəyişib

Prezident İlham Əliyev Səhiyyə Nazirliyi haqqında Əsasnamədə dəyişiklik edilməsi barədə fərman imzalayıb. Fərmanla səhiyyə nazirinin müavinlərinin sayı 3-dən 4-dək artırılıb.

# Qalib Liderə artan ümumxalq inamı



Hazırda Azərbaycanda respondentlərin 93,6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirir. Bu reallıq Medianın İnkişafı Agentliyinin (MEDİA) 2026-cı ilin birinci yarısında Prezident İlham Əliyevin fəaliyyətinə ölkə vətəndaşlarının münasibətini öyrənmək, bu sahədə dinamika və tendensiyaları təhlil etmək məqsədilə apardığı ictimai rəy sorğusu nəticəsində qeyd edilib.

Sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87,7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Prezident İlham Əliyevə etimad göstərdiyini təsdiq edir.

Qeyd edək ki, ictimai rəy sorğusu 20 may - 30 may 2026-cı il tarixlərində üzbəüz müsahibə üsulu ilə keçirilib. Sorğuda yaşı 18 və yuxarı olan 1210 respondent iştirak edib. Respondentlərin cins, yaş qrupları, təhsil səviyyəsi və iqtisadi rayonlar üzrə bölgüsü rəsmi statistik göstəricilərə proporsional şəkildə müəyyənləşdirilib, əhali üzrə reprezentativlik təmin edilib.

**Vətəndaşların seçki davranışları ən güclü indikatorlardan biri kimi**

MEDİA-nın apardığı ictimai rəy sorğusunda müxtəlif indikatorlar üzrə göstəricilər əsas götürülüb. Bildirilir ki, Azərbaycan Prezidentinə etimad və dəstəyin yüksək olduğunu təsdiq edən ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır. Belə ki, Prezident seçkiləri növbəti bazar günü keçirilsə, rəyi soruşulanların böyük əksəriyyəti - 91,5 faizi seçkilərdə Prezident İlham Əliyevə səs verərdi: "Sorğu nəticələrinin təhlili Prezidentə olan yüksək inam və etimadın dövlət başçısının reputasiyası ilə bərabər, həm də dövlətin daxili sabitliyinin qorunması fonunda formalaşdığını göstərir. Bu mənada, Prezident ictimai rəydə ümummilli maraqlar çərçivəsində birləşdirici, sabitlik baxımından isə alternativsiz hesab edilir - respondentlərin 81,9 faizi Prezident İlham Əliyevi alternativsiz siyasi lider kimi qəbul edir. Bu yanaşma sorğuda iştirak edən bütün sosial-demoqrafik qruplar üzrə müşahidə olunur və ötən dövrlərlə müqayisədə bu göstəricidə artım dinamikası qeydə alınıb".

Cəmiyyətin, insanların liderlərə münasibəti və etimadı seçkilər yolu ilə müəyyənləşir. Dünya təcrübəsində həmçinin seçkilərdən sonra liderlərin reputasiyasının sabit qalmadığı, əsasən də aşağı düşdüyü tez-tez izlənilən bir prosesdir. Bu da onunla bağlıdır ki, seçkilərə qatılan ayrı-ayrı liderlər cəmiyyət üçün həssas məqamları nəzərə almaqla populist vədlər verirlər, üzərlərinə icrası praktiki cəhətdən mümkün olmayan öhdəliklər götürürlər. Seçkilərdən az sonra isə bəlli olur ki, "hər şeyə qadir olan" lider əslində çox bacarıqsızdır və xalqı arxasınca aparmaq iqtidarında deyil. Təbii ki, bu halda onun reputasiyası da quyunun dibinə düşür.

Prezident İlham Əliyevlə bağlı vəziyyət isə tamam fərqlidir. Dövlətimizin başçısı Özünün yüksək reputasiyasını 2003-cü ilin oktyabrında baş tutan seçkilərdən 2024-cü ilin fevralında keçirilən son Prezident seçkilərinədək qoruyub saxlayıb. Biz Prezident İlham Əliyevə ümumxalq rəğbətinin davamlı olaraq artdığını müşahidə edirik. İlham Əliyev Prezident seçkiləri marafonuna ilk dəfə 2003-cü ildə qatılıb. Həmin il oktyabrın 15-də demokratik qaydada keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 76,84 faizdən çoxunun etimadını qazanaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2008-ci ildə baş tutan Prezident seçkilərində seçicilərin 88,73 faiz səsini qazanıb. 2013-cü il Prezident seçkilərində seçicilərin 84,54 faiz səsini qazanan İlham Əliyev, 2018-ci il aprelin 11-də baş tutmuş növbədənkənar Prezident seçkilərində 86,02 faiz seçici etimadı əldə edib.

İndi isə 2024-cü il fevralın 7-də keçirilən son Prezident seçkilərinin nəticələrinə nəzər salaq. Həmin seçkilərdə İlham Əliyev səslərin 92,12 faizini (4 milyon 567 min 458 səs) toplayaraq qələbə qazanıb. Mərkəzi Seçki Komissiyasının fevralın 11-də seçkilərin yekunları ilə bağlı keçirilən iclasında bildirilib ki, seçkilər 125 seçki dairəsi üzrə keçirilib və vətəndaşlara səs verməleri üçün bütün şərait yaradılıb.

Rəqəmlərdən də göründüyü kimi, İlham Əliyevə seçici inamı onilliklər boyunca nəinki azalmayıb, əksinə, daha da artıb ki, bu da səbəbsiz deyil. Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 93,6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirir.

Bunu şərtləndirən əsas amil isə İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdir. Onun müdrik baxışları, fəaliyyətində hər zaman əməl etdiyi 4 qızıl qayda, xalqa arxalanması, milli maraqları önə çəkməsi, hər hansı bir fəaliyyət üçün zamanı düzgün seçməsi, heç vaxt tələsməməsi və heç vaxt da gecikməməsi Azərbaycanı zirvələrə yüksəldib.

**Niyə məhz İlham Əliyev?**

Medianın apardığı ictimai rəy sorğusunun nəticələri Prezident İlham Əliyevin siyasi liderliyinə və strateji fəaliyyətinə ictimai dəstəyin yüksək səviyyədə olduğunu göstərib. Yuxarıda vurğuladığımız kimi, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğur hekayəsi 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkiləri ilə başlayıb. Bəs insanlar niyə məhz İlham Əliyevin namizədliyini dəstəklədilər?

Sualın cavabı olaraq iki mühüm amili xüsusi fərqləndirmək mümkündür. Seçkidə Yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyevin böyük üstünlüklə qalib gəlməsinə təsir göstərən mühüm məqamlardan biri kimi, Azərbaycan xalqının özünün böyük oğlu, Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə hörmət və ehtiramını, Onun əsasını qoyduğu siyasətə inamını qeyd edə bilərik. İdeoloji cəhətdən iki fərqli formasiyada respublikamıza rəhbərlik edən Heydər Əliyev Azərbaycanın intibahı üçün fundamental əsaslar yaradan tarixi şəxsiyyətdir. XX yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyimizin xilası da məhz bu böyük şəxsiyyətin adı ilə bağlıdır. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gələməklə ölkəni xaos, anarxiya vəziyyətindən çıxararaq sabitliyə və inkişafa istiqamətləndirib.

Heydər Əliyevin Özü və xalqımız yaxşı başa düşürdü ki, Azərbaycanın nicatı, müstəqilliyimizin qorunması, gələcək inkişafımız məhz bu siyasətin ardıcıllığının təmin edilməsindən asılıdır. Daim Azərbaycanın gələcəyini düşünən Heydər Əliyev seçkilərdən bir qədər əvvəl - 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət ünvanlayaraq öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirib və seçiciləri Prezidentliyə namizəd, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıb. Həmin tarixi müraciətdə oxuyuruq: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan xalqı Heydər Əliyevin bu çağırışını məmnuniyyətlə qəbul etdi. 2003-cü ilin oktyabrında baş tutan seçkilərin nəticələrini şərtləndirən ikinci mühüm amil bilavasitə İlham Əliyevin Özünün həmin dövrədək daşıdığı müxtəlif vəzifələrdə uğurla çalışması, etimadı yüksək səviyyədə doğrultması ilə bağlı idi. Bu gün narahat, ziddiyyətlərlə dolu dünyada Azərbaycanın qazandığı uğurlar əyani şəkildə təsdiqləyir ki, müasir dövr siyasətçilərinə verilən bütün tələblər İlham Əliyevdə cəmləşib. Yüksək intellekt, yaxşı təhsil, idarəetmədə mükəmməl təcrübə, siyasi konyukturanı bilməsi, ən əsası isə xalqa yaxınlığı, milli maraqlarımıza sadiqliyi Onu seçkilərə qatılan digər namizədlərdən fərqləndirirdi. Onun keçdiyi yol qürurverici idi. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu və müəllimi olmuşdu. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifələrində çalışmışdı. Azərbaycanlı seçicilər Onun Milli Məclisin deputatı, Avropa Şurasının Parlament Assambleyasındakı daimi nümayəndə heyətimizin başçısı olarkən əldə etdiyi uğurları yaxşı xatırlayırdılar. İlham Əliyev ARDNŞ-in birinci vitse-prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti (1997-ci ildən etibarən), həm də Azərbaycan Respublikasının Baş naziri kimi çalışdığı bütün vəzifələrdə (2003-cü ilin avqustundan sonra) mükəmməl bir idarəçilik yolu keçmişdi. İlham Əliyev 1999-cu ildə Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının Sədr müavini, 2001-ci ildə isə Sədrin 1-ci müavini seçilmişdi. Bütün sadalanan vəzifələrdə İlham Əliyev Ona göstərilən etimadı ən yüksək səviyyədə doğrultmuşdu. Bu da seçicilərin İlham Əliyevin namizədliyini dəstəkləməsi üçün əsas oldu.



**Dövlət siyasətində varislik - verilən vədlər yerinə yetirilir**

"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik". 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi bu fikirdə göstərilən hədəflərin hər biri bu gün real həyatda öz əksini tapıb. İlham Əliyevin ilk andiçmə mərasimində verdiyi vədlər məzmunca taleyüklü olduğu kimi, ötən dövrdə keçilən yol da qərinələrə bərabərdir, Azərbaycan xalqı Ona bəslənən etimadın yüksək səviyyədə doğrulduğuna şahidlik edir və bundan qürur duyur. Prezident İlham Əliyevin vəd verdiyi kimi, Ulu Öndərin əsasını qoyduğu siyasətə sadiq qalması Azərbaycanın ən böyük uğuru və xalqımızın ən böyük xoşbəxtliyidir. Siyasi varisliyin təmin edilməsi ölkəmizi bəzi dövlətlərin timsalında müşahidə etdiyimiz pis nümunələrdən - geri dönmələrdən qoruyub və davamlı inkişafa istiqamətləndirib.

Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas leytmotivini təşkil edir. Prezident İlham Əliyev Azərbaycanı iqtisadi cəhətdən tam müstəqil dövlətə çevirib. Bugünkü kataklizmlərlə dolu olan dünya reallığında suverenlik anlayışını heç də bütün dövlətlərə şamil etmək mümkün deyil. Bəzi dövlətlərin iqtisadi resursları zəifdir, digər bir qism dövlətlərin liderləri müstəqil siyasi iradəyə malik deyillər. Bu və başqa amillərə görə də həmin ölkələr digər dövlətlərin forpostu qismində çıxış edirlər. Belə dövlətlərin müstəqilliyi və suverenliyi şərti səciyyə daşıyır. Azərbaycanın nümunəsi isə fərqlidir. Güclü iqtisadiyyata dayaqlarına malik olan respublikamız hansısa bir məsələni həll etdikdə kənardan, xarici ölkələrdən və beynəlxalq qurumlardan kömək ummur, öz problemlərini özü həll edir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, iqtisadi cəhətdən müstəqil olmayan dövlət siyasi cəhətdən də müstəqil ola bilməz. Biz qürur duyuruq ki, son iyirmi ildən artıq müddətdə dövlətimizin başçısının müdrik siyasətinin nəticəsi olaraq Azərbaycanın iqtisadi müstəqilliyi və bu əsasda siyasi müstəqilliyi tam təmin olunub.

**Şanlı zəfərlərimiz tarixdə əbədi qalacaq**

İşğalçı Ermənistan ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın 20 faizini o zaman müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda AXC-"Müsavat" cütlüyünün xəyanəti nəticəsində baş verən mənfi proseslərdən, hakimiyyət boşluğundan, hərc-mərcllikdən, həmrəyliyin təmin olunmamasından istifadə etməklə və havadarlarının dəstəyindən bəhrələnməklə işğal etmişdi.

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmadı. Dövlət başçısı seçildiyi vaxtdan Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsini Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Dövlətimizin başçısı yerli və xarici auditoriyalar qarşısında çıxışlarında ölkəmizin keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini qətiyyətlə və yüksək diplomatik məharətlə dünya ictimaiyyətinin diqqətinə çatdırır, eyni zamanda, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət həyata keçirirdi. Beləliklə də, özünün iqtisadi müstəqilliyinə nail olan Azərbaycan, həmçinin istənilən xarici təhdidi dəf etməyə və düşmənin başını əzməyə qadir olan güclü ordu qurmağa nail oldu.

Azərbaycan düşməni məhz özünün güclü Ordusu ilə cəzalandırdı və torpaqlarını işğaldan azad etdi. Vətən müharibəsində möhtəşəm Zəfərə imza atsaq da, hələlik tarixi missiyamız tamamlanmamışdı. Bəziləri düşünürdü ki, Azərbaycan 2020-ci ilin 10 noyabrında imzalanan üçtərəfli bəyanatla təsbit edilmiş status-kvonu dəyişməyə cürət etməyəcək və Şuşanın azad edilməsi bizim üçün maksimal hədd olacaq.

Lakin heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca "nəyi, nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidenti İlham Əliyevin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmayıb. Sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı olub və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı nəticəsində ərazilərimizdə separatizmin kökünün tamam kəsilməsi ilə öz məntiqi sonluğuna çatıb. Bu gün ölkənin bütün ərazisində Azərbaycan Bayrağı əzəmətlə dalğalanır. Elə 2024-cü ilin fevralında son Prezident seçkiləri də müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində keçirildi. Şanlı zəfərlərimiz tarixdə əbədi qalacaq.

***Mübariz ABDULLAYEV***

# Leyla Əliyeva Yevlaxda...








İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib. Elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib. Bildirilib ki, 2024-cü ilin yanvarında köhnə inzibati bina sökülüb və yerində yeni məktəb binasının tikintisinə başlanılıb. Yeni məktəb binası 528 şagird yerlikdir. Burada müasir standartlara uyğun zəruri tədris şəraiti yaradılıb.

Leyla Əliyeva məktəbin kitabxanası, informatika, biologiya və kimya kabinetləri, texnologiya, məktəb hazırlıq qrupu otaqları, yeməkxana və idman zalında yaradılmış şəraitlə yaxından tanış olub. Yeni məktəb binasında yaradılmış müasir tədris infrastrukturu şagirdlərin keyfiyyətli təhsil almasına, onların bilik və bacarıqlarının inkişafına, həmçinin müəllimlərin fəaliyyətinin daha səmərəli təşkilinə imkan verəcək.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Cümə məscidini ziyarət edib, məsciddə dini ayinlərin icrası və ibadət üçün yaradılmış şəraitlə yaxından tanış olub. Məscidin imamı bildirib ki, Cümə məscidi 1998-ci ildə istifadəyə verilib. Məsciddə eyni anda 600-ə yaxın şəxs ibadət edə bilər. Azad edilmiş ərazilərdə məscidlərin bərpasının din xadimlərini, ibadət əhlini xüsusilə sevindirdiyini bildirən imam Cümə məscidinin də dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb, ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib.

Ziyarətin sonunda Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlaxa səfəri çərçivəsində "Gənc arıçı" layihəsinin iştirakçısı Süleyman Süleymanovun ailəsini ziyarət edib. Leyla Əliyeva gənc arıçının ailə üzvləri ilə səmimi söhbət edib, onların yaşayış şəraiti, arıçılıq sahəsindəki fəaliyyəti, əldə etdikləri ilk nəticələr və gələcək planları ilə yaxından maraqlanıb, həmçinin təsərrüfatda pendirin hazırlanması prosesində iştirak edib, ailəyə hədiyyələr təqdim edib.

Görüş zamanı "Gənc arıçı" layihəsi çərçivəsində yaradılmış arıçılıq təsərrüfatı, arı ailələrinin saxlanılması, bal istehsalı və təsərrüfatın gələcək inkişaf imkanları barədə məlumat verilib. Ailə göstərilən diqqət və dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib, ona arıçılıq məhsulları hədiyyə edib.

Xatırladaq ki, layihə iştirakçısı Süleyman Süleymanov 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində iştirak edib. O "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Qeyd edək ki, 2021-ci ildən IDEA İctimai Birliyinin təşəbbüsü, Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılığın ekosahibkarlıq istiqaməti kimi inkişafını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahının yaxşılaşdırılmasına kömək göstərməkdir.

Yevlax şəhərində abadlaşdırılmış yaşayış məhəlləsi iyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən həyata keçirilən "Sağlam məhəllə" layihəsi çərçivəsində Gənclər və İdman Nazirliyi tərəfindən məhəllədə idman zonaları yaradılıb. Ərazidə süni örtüklü mini futbol və basketbol meydançaları salınıb. Müxtəlif idman qurğuları, stolüstü tennis və şahmat masaları quraşdırılıb.

Həmçinin Yevlax Şəhər İcra Hakimiyyəti tərəfindən həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar və yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları təmir olunub, asfalt örtüyü, elektrik xətləri yenilənib. Həyətin ərazisində ağac, mövsümü gül, eləcə də kol bitkilərindən yaşıllıq zolağı salınıb.

Leyla Əliyeva məhəllədə aparılmış abadlıq işləri ilə tanış olub, IDEA könüllüləri ilə birlikdə mövsümi güllər əkib. Məhəllənin balaca sakinlərinə hədiyyələr təqdim olunub, onlarla şəkillər çəkdirilib.

Leyla Əliyeva Yevlax şəhərində yeni yaradılmış Sahibsiz Heyvanlara Qayğı Mərkəzinin regional bölməsinin açılışında da iştirak edib. O, Mərkəzin ərazisində yaradılmış şəraitlə tanış olub, sahibsiz heyvanların qəbulu, müayinəsi, müalicəsi, peyvəndlənməsi, sterilizasiyası və reabilitasiyası üçün nəzərdə tutulan müvafiq sahələrə baxış keçirib. Ümumi ərazisi 2,5 hektar olan kompleksdə müasir avadanlıqla təchiz olunmuş klinika binası, heyvanların müşahidə və müalicəsi üçün xüsusi bölmələr, inzibati və yardımçı binalar, o cümlədən karantin binası inşa edilib.

Qeyd edək ki, Yevlaxda yaradılmış yeni mərkəz Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi"nin regional bölməsi kimi fəaliyyət göstərəcək. Sahibsiz heyvanlarla bağlı regionlardakı mövcud vəziyyətin təhlili bu istiqamətdə görülən tədbirlərin ölkənin digər şəhər və rayonlarını da əhatə etməsinin zəruriliyini göstərib. Yeni bölmənin Yevlaxda yaradılması şəhərin əlverişli coğrafi mövqeyi və müxtəlif regionları birləşdirən əsas nəqliyyat yollarının qovşağında yerləşməsi nəzərə alınmaqla müəyyənləşdirilib. Regional bölmə ətraf şəhər və rayonlarda sahibsiz heyvanlarla bağlı müraciətlərə daha operativ reaksiya verilməsinə imkan yaradacaq.

# Rəqəmsal satınalmaya etimad artır

## Məqsəd daha səmərəli idarəetmə sisteminin yaradılmasıdır

Azərbaycanın uğurlu inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, ölkənin milli maraqlar üzərində qurulan siyasətində qlobal miqyasda yaranan yeni çağırışlar mütləq qaydada nəzərə alınır. Hazırda dünyada süni intellekt, müxtəlif idarəetmə sahələrində rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsi artıq gələcəyin deyil, bu günün əsas inkişaf amili qismində çıxış edir.

Azərbaycan da müxtəlif idarəetmə sahələrində rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsini özünün starteji hədəflərindən biri kimi müəyyənləşdirib. Bununla bağlı bu günlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında önəmli fikirlər ifadə olunub. Birinci vitse-prezident vurğulayıb ki, qarşıya qoyulan əsas məqsədlərdən biri daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır.

Ölkəmizin rəqəmsallaşma strategiyasında vacib məqamlardan biri də beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Mehriban xanım Əliyeva bildirib ki, biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır. Bu baxımdan Azərbaycanın müvafiq təsisatlarının Ali Audit Qurumların Beynəlxalq Təşkilatı (INTOSAI) ilə sıx əməkdaşlığı təqdirəlayiqdir. Bu günlərdə Bakıda Ali Audit Qurumların Beynəlxalq Təşkilatının Dövlət Satınalmalarının Auditi üzrə İşçi Qrupunun illik toplantısı baş tutub. Tədbirdə müzakirə olunan əsas məsələlərdən biri də dövlət satınalmalarında və onların auditində rəqəmsallaşmanın genişləndilməsinin önəmi olub.

**Dövlət satınalmaları sahəsində qlobal trend - rəqəmsallaşma və beynəlxalq əməkdaşlıq əsas prioritetlərdəndir**

Hazırda dünya üzrə dövlət satınalmalarının həcmi 13 trilyon dollara çatır və bu sahə ölkələrin iqtisadi inkişafında mühüm rol oynayır. Dövlət satınalmaları əksər ölkələrdə ümumi daxili məhsulun 13-20 faizini təşkil edir. Bu səbəbdən satınalmaların şəffaf, səmərəli və milli maraqlara uyğun həyata keçirilməsi ali audit orqanlarının əsas fəaliyyət istiqamətlərindən biridir.

Bu sahədə əsas qlobal trend isə heç şübhəsiz ki, rəqəmsallaşmanın tətbiqinin genişləndilməsidir. Rəqəmsal həllər auditin səmərəliliyinin artırılmasına, korrupsiya risklərinin vaxtında aşkarlanmasına və dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə mühüm töhfə verir. Dövlət satınalmalarında rəqəmsallaşma öz-özlüyündə insan təmaslarına son qoyulması anlamına gəlir ki, bu da neqativ halların əhatə dairəsinin daralması deməkdir.

"Dövlət satınalmalarının auditində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, metodoloji bazanın gücləndirilməsi, rəqəmsallaşma və süni intellekt imkanlarından istifadə bu sahədə səmərəliliyin artırılması üçün əsas istiqamətlərdəndir". Bu sözləri Ali Audit Qurumların Beynəlxalq Təşkilatının Dövlət Satınalmalarının Auditi üzrə İşçi Qrupuna sədrlik edən Rusiyanın Hesablama Palatasının auditoru Svetlana Orlova Bakıda keçirilən illik toplantıdakı çıxışı zamanı deyib.

O bildirib ki, İşçi Qrupunun fəaliyyəti çərçivəsində BMT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dünya Bankı, Avropa İttifaqı və digər beynəlxalq qurumların yanaşmalarını, eləcə də müxtəlif ölkələrin uğurlu milli təcrübələrini özündə birləşdirən vahid rəqəmsal bilik bazası formalaşdırılıb və bu baza mütəmadi olaraq yenilənir.

Çıxışında rəqəmsallaşma məsələlərinə xüsusi diqqət ayıran Svetlana Orlova vurğulayıb ki, texnoloji inkişaf nə qədər sürətlə getsə də, auditorun peşəkar qiymətləndirməsi və insan amili hər zaman həlledici əhəmiyyət daşıyacaq. O qeyd edib ki, rəqəmsal həllər auditin səmərəliliyinin artırılmasına, korrupsiya risklərinin vaxtında aşkarlanmasına və dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə mühüm töhfə verir.

**Azərbaycanda dövlət satınalmalarının rəqəmsal auditinə keçid genişlənir**

Toplantıda Azərbaycan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ölkəmizdə dövlət satınalmaları sahəsində vəziyyətə diqqət çəkib. Onun təqdim etdiyi 2023-2025-ci illəri əhatə edən müqayisəli təhlilə əsasən, 2025-ci ildə dövlət satınalmalarının sayı 2023-cü illə müqayisədə təxminən 52 faiz, ümumi məbləği isə 43 faiz artıb. Bu dinamika dövlət satınalmalarının büdcə xərclərinin icrasında rolunun daha da gücləndiyini göstərir.

O qeyd edib ki, 2025-ci ildə satınalmaların say baxımından 52,4 faizi müsabiqə üsulu ilə keçirilsə də, ümumi məbləğin 54,6 faizi bir mənbədən satınalma üsulunun payına düşüb.

Hesablama Palatasının sədrinin sözlərinə görə, təhlillər zamanı müəyyən edilib ki, müsabiqə əsaslı satınalma həyata keçirən 1400-dən çox təşkilatın 64 faizi satınalma fəaliyyətinə yalnız ikinci rübdən başlayıb: "Həmçinin tikinti müqavilələrinin 40 faizindən çoxunda icra müddətində dəyişikliklər edilib və bu dəyişikliklərin əhəmiyyətli hissəsi satınalan tərəfin maraqlarına uyğun olmayıb. Bir mənbədən keçirilmiş 9035 satınalma arasında cəmi 171 müqavilə üzrə ehtimal olunan məbləğ göstərilib. Bundan başqa, bəzi hallarda elektron açıq tenderlər nəticəsində formalaşan qiymətlərin eyni predmet üzrə bir mənbədən bağlanmış müqavilələrdən daha yüksək olması əlavə təhlillərin aparılmasını zəruri edir".

Hesablama Palatasının sədrinin sözlərinə görə, Azərbaycanda dövlət satınalmaları sahəsində son illər genişmiqyaslı institusional və rəqəmsal islahatlar həyata keçirilir. Sədr qeyd edib ki, 2024-cü il yanvarın 1-dən qüvvəyə minmiş "Dövlət satınalmaları haqqında" yeni qanun satınalma proseslərinin daha şəffaf, rəqabətli və səmərəli təşkilinə hüquqi baza yaradıb: "Həmçinin bu sahədə dövlət siyasətini həyata keçirən qurumun idarəetmə modelində institusional dəyişikliklər aparılıb".

Onun sözlərinə görə, Hesablama Palatası dövlət satınalmalarının auditi üzrə metodiki sənəd qəbul edib və beynəlxalq təcrübə nəzərə alınmaqla həmin sənədin yenilənməsi nəzərdə tutulur. "Bununla yanaşı, dövlət satınalmaları informasiya sistemində toplanan məlumatların xüsusi proqram təminatı vasitəsilə avtomatlaşdırılmış qaydada emalına başlanılır. Elektron platformaların tətbiqi auditorlara satınalma prosesini real vaxt rejimində izləmək, riskləri daha operativ müəyyənləşdirmək və auditin keyfiyyətini yüksəltmək imkanı yaradacaq", - deyə Vüqar Gülməmmədov vurğulayıb.

Hesablama Palatasının sədri bildirib ki, ali audit orqanlarının fəaliyyətində yaşıl satınalmalar, sosial satınalmalar, rəqəmsal satınalmalar və riskəsaslı audit yanaşmaları xüsusi əhəmiyyət kəsb edir. Vüqar Gülməmmədov vurğulayıb ki, dövlət satınalmalarının effektiv auditi yalnız maliyyə intizamını möhkəmləndirmir, həm də iqtisadi artımın sürətlənməsinə, rəqabət mühitinin inkişafına və cəmiyyətin dövlət institutlarına etimadının güclənməsinə xidmət edir.

**Elektron satınalmalar nəticəsində dövlət büdcəsinə 17,9 faiz qənaət təmin olunub**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və



İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov toplantıdakı çıxışında son illər ölkədə dövlət satınalmalarının həcminin əhəmiyyətli dərəcədə artdığını bildirib. 2020-ci ildə ümumi həcmi 6,6 milyard manat olan dövlət satınalmaları 2025-ci ildə 1,6 dəfə artaraq 10,8 milyard manata çatıb.

Agentlik sədri qeyd edib ki, dövlət satınalmalarının genişlənməsi iqtisadi fəallığın artmasına, yerli müəssisələrin sifariş portfelinin böyüməsinə, yeni iş yerlərinin yaradılmasına və özəl sektorun inkişafına mühüm töhfə verir.

Elnur Bağırov əlavə edib ki, ötən il 2 mindən çox satınalan təşkilat tərəfindən keçirilən 19 min satınalmada 9 minə yaxın təchizatçı iştirak edib, bu da dövlət satınalmalarında rəqabət mühitinin inkişaf etdiyini göstərir.

Onun sözlərinə görə, ötən il elektron satınalmalar nəticəsində dövlət büdcəsinə qənaət edilmiş vəsaitin ehtimal olunan qiymətdə xüsusi çəkisi 17,9 faiz təşkil edib. Bu nəticə rəqabətli satınalma mühitinin gücləndirilməsi, elektron satınalma mexanizmlərinin geniş tətbiqi və rəqəmsal transformasiya sahəsində həyata keçirilən islahatların effektivliyini nümayiş etdirir.

Elnur Bağırovun sözlərinə görə, dövlət satınalmalarının elektronlaşdırılması satınalma sistemində şəffaflığın və səmərəliliyin artırılmasına mühüm töhfə verir. Agentlik sədri vurğulayıb ki, dövlət satınalmalarının vahid internet portalının funksionallığının genişləndirilməsi satınalma proseslərinin daha əlçatan və operativ həyata keçirilməsinə imkan yaradıb. "2025-ci ildə 2020-ci illə müqayisədə elektron satınalmaların sayı 4,3 dəfə, məbləği isə 5,3 dəfə artıb. Bu göstəricilər rəqəmsal satınalma mexanizmlərinə etimadın yüksəldiyini nümayiş etdirir", - deyə qurum sədri vurğulayıb. O əlavə edib ki, elektron sənəd dövriyyəsi, dövlət informasiya sistemləri arasında inteqrasiya və inzibati prosedurların sadələşdirilməsi audit imkanlarını da əhəmiyyətli dərəcədə genişləndirir.

*Mübariz FEYİZLİ*

# YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb







Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edən Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Şanxay şəhərində "Çinin sosial-iqtisadi inkişafına dair 15-ci beşillik proqram və Çin xüsusiyyətli modernləşmə" və "Kadrların hazırlanması və partiyanın gənclər siyasəti" mövzusunda seminarlarda iştirak edib.

Daha sonra nümayəndə heyətinin Pekin şəhərində ÇKP Beynəlxalq əlaqələr şöbəsinin Avrasiya departamenti direktorunun müavini Syu Çinsian ilə görüşü olub. Görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb, hakim siyasi partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti partiya üzvlüyünün 50 illiyi tamam olan ÇKP üzvlərinin təltif olunması mərasimində də iştirak edib. Tədbirdə ÇKP Mərkəzi Komitəsinin üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Haysin və digər ÇKP nümayəndələri, eləcə də Azərbaycan, Liviya, Kot d'İvuar, Zambiya və Anqoladan olan nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər.

YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov ÇKP-nin yaradılmasının 105 illiyinin qeyd olunduğu dövrdə belə bir tədbirin keçirilməsinin xüsusi rəmzi məna kəsb etdiyini bildirib: "Bu illər ərzində partiya şərəfli və zəngin inkişaf yolu keçmiş, müasir Çinin formalaşmasında və inkişafında həlledici rol oynamışdır. Bu gün Çinin iqtisadiyyat, elm, texnologiya və dövlət idarəçiliyi sahələrində əldə etdiyi nailiyyətlər dünyada böyük rəğbət və hörmətlə qarşılanır".

V.İskəndərov siyasi partiyalar arasında təcrübə mübadiləsinin qarşılıqlı anlaşmanın dərinləşməsinə, etimadın möhkəmlənməsinə və müasir dövrün çağırışlarına effektiv cavab verilməsinə mühüm töhfə olduğunu qeyd edib: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlər bu gün ən yüksək səviyyədədir. Buna Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin rəhbərliyi ilə ölkələrimiz arasındakı hərtərəfli strateji tərəfdaşlıq mühiti önəmli zəmin yaradır. Qeyd etmək istərdim ki, 2024-cü il 13 noyabr tarixində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri çərçivəsində partiyalar arasında Əməkdaşlıq memorandumunun imzalanması tərəfdaşlığımızı keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəltmişdir. Biz partiyalararası əməkdaşlığa böyük dəyər veririk və əminik ki, bu işbirliyi yeni birgə layihələr və təşəbbüslərlə daha da zənginləşərək uğurla inkişaf edəcəkdir".

Səfər çərçivəsində nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Sun Haiyan ilə də görüşüb. Görüşdə qarşılıqlı səfərlərin partiyalararası əlaqələrin inkişafında mühüm rolu vurğulanıb. YAP nümayəndə heyətinin keçirdiyi görüşlərdə və iştirak etdiyi seminarlarda faydalı fikir mübadiləsinin aparıldığı diqqətə çatdırılıb.

Nümayəndə heyətinin Hebey vilayətinin Syunyan, Çensyan və Şasi şəhər tipli qəsəbələrinə, Böyük Çin səddinə və İmperator saray kompleksinə ziyarəti də təşkil olunub.

YAP nümayəndə heyətinin səfəri iyulun 2-də başa çatıb.

# Nəsimi rayonunda Polis Günü qeyd olundu






Polisi Günü münasibətilə Nəsimi rayonunda rayon icra hakimiyyətinin, rayon polis idarəsinin və digər hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirakı ilə tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib. Daha sonra Nəsimi Rayon Polis İdarəsində təşkil olunan tədbirdə Ümummilli Liderin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov, Nəsimi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Vüqar Ağayev və rayon prokuroru Həsən Həniféyev polis orqanlarının ölkədə ictimai asayişin qorunması və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını vurğulayaraq polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib, onlara xidmətdə yeni uğurlar arzulayıblar.

Tədbirin sonunda xidmətdə fərqlənən bir qrup polis əməkdaşı fəxri fərman və təşəkkürnamələrlə təltif olunub.



# Bakı yeni qlobal geosiyasi xəritəni formalaşdırır

## Azərbaycanın növbəti strateji missiyası

Cənubi Qafqaz tarix boyu müxtəlif sivilizasiyaların, ticarət yollarının və siyasi maraqların qovuşduğu mühüm geostrateji məkan kimi tanınıb. Müasir beynəlxalq münasibətlər sistemində isə regionun əhəmiyyəti daha da artıb - Cənubi Qafqaz Avropa ilə Asiyanı, Xəzər hövzəsini Qara dəniz və Aralıq dənizi hövzələri ilə birləşdirən əsas körpülərdən birinə çevrilib. Qlobal enerji təhlükəsizliyi, nəqliyyat-logistika şəbəkələrinin inkişafı, beynəlxalq ticarətin şaxələndirilməsi və regional təhlükəsizlik məsələləri Cənubi Qafqazı dünyanın aparıcı siyasi və iqtisadi güclərinin diqqət mərkəzində saxlayır. Məhz bu mürəkkəb geosiyasi mənzərədə Azərbaycan öz əlverişli coğrafi mövqeyi, balanslaşdırılmış xarici siyasəti və davamlı iqtisadi inkişaf strategiyası ilə regionun əsas aktoru kimi çıxış edir. Qeyd olunmalıdır ki, Azərbaycanın Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi ona yalnız tranzit ölkə statusu qazandırmır, həm də müxtəlif regionlar arasında siyasi dialoqun, iqtisadi əməkdaşlığın və mədəni inteqrasiyanın inkişafında mühüm rol oynamaq imkanı yaradır. Son illər həyata keçirilən genişmiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələri ölkənin regional və beynəlxalq əhəmiyyətini daha da artırır, onu Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində əsas logistika mərkəzlərindən birinə çevirir. Bununla yanaşı, Azərbaycan çoxtərəfli əməkdaşlıq platformalarında fəal iştirak etməklə regional sabitliyin möhkəmləndirilməsinə, qarşılıqlı etimadın artırılmasına və iqtisadi inteqrasiyanın genişlənməsinə mühüm töhfələr verir.

**Azərbaycan əsas rol oynaya bilər...**

Hazırkı mənzərədə geosiyasi transformasiyalar, qlobal enerji bazarlarında baş verən dəyişikliklər və yeni nəqliyyat marşrutlarına artan tələbat Azərbaycanın strateji əhəmiyyətini daha da yüksəldir. Ölkənin malik olduğu təbii ehtiyatlar, inkişaf etmiş nəqliyyat infrastrukturu, etibarlı tərəfdaş imici və praqmatik xarici siyasət kursu onu regionun sabitlik və əməkdaşlıq gündəliyinin formalaşdırılmasında əsas iştirakçı kimi ön plana çıxarır. Bu baxımdan, Azərbaycanın Cənubi Qafqazda oynadığı rol yalnız milli maraqların təmin edilməsi ilə məhdudlaşmır, həm də daha geniş Avrasiya məkanında sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinə xidmət edir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Bakıda mətbuata bəyanatında bildirib ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir: “Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik”.

**Bakı qütblərarası münasibətlər sistemini yeniləyir...**

XXI əsrin ikinci onilliyindən başlayaraq dünya iqtisadiyyatında və siyasətində müşahidə olunan dəyişikliklər artıq qlobal məzmun daşıyır. Rəqəmsallaşma, süni intellektin iqtisadi proseslərə təsiri, enerji bazarlarının yenidən formalaşması, hibrid təhlükəsizlik təhdidlərinin artması və qlobal ticarət yollarının dəyişməsi Avrasiyanın geosiyasi mənzərəsini dərin surətdə transformasiya edir. Bu transformasiyanın ən mühüm mərkəzlərindən biri isə Bakı olaraq qalır. Rəsmi Bakı müasir çağırışları sadəcə izləməklə kifayətlənmir, onları əvvəlcədən qiymətləndirərək çevik şəkildə siyasi, iqtisadi və diplomatik xəttinə tətbiq edir. Burada əsas faktor Azərbaycanın həm Şərq, həm Qərb, həm də Mərkəzi Asiya ilə paralel strateji tərəfdaşlıqlar qurmasıdır. Bu əlaqələr statik deyil, dinamik xarakter daşıyır və Bakı bu dinamikanı idarə etmək bacarığı ilə qlobal səviyyədə fərqlənir. Azərbaycan qlobal dünyanın ən mühüm strateji ünvanlarından biri kimi iqtisadi əlaqələrin güclənməsi ilə yanaşı, paralel olaraq siyasi əlaqələrin dərinləşməsində də mühüm rola malik olur.

- Mərkəzi Asiya ilə Qərb arasında dialoqun genişlənməsi;
- Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşməsi;
- Çinlə iqtisadi əlaqələrin sistemli şəkildə böyüməsi;
- Avropa ilə enerji və logistika istiqamətində yeni müqavilələrin imzalanması.

Bütün bunlar Bakının yaratdığı müasir kommunikasiya arxitekturasının göstəricisidir. Azərbaycanın əsas fərqi ondan ibarətdir ki, o, münasibətləri təkcə möhkəmləndirmir paralel olaraq yeni danışıq masaları yaradır, müxtəlif güclər arasında balans tənzimləyir və qlobal oyunçuların maraqlarını kəsişdirən neytral platformaya çevrilir. Bu proses Bakının Avrasiyadakı sistemləşdirici funksiyasını daha da gücləndirir.




**AK Prezidentindən müraciət: Tərəfdaşlıq naminə...**

Müasir dünyanın ən diqqətçəkən reallıqlarından biri odur ki, artıq ənənəvi siyasi müdaxilə metodları tədricən öz aktuallığını itirir. Qlobal münasibətlər sistemi elə sürətlə inteqrasiya olunur ki, dünyanın istənilən regionunda baş verən kiçik böhran belə geniş coğrafiyada domino effekti yaradır. Buna görə də münaqişələr, qeyri-sabitlik, təhlükəsizlik boşluqları artıq təkcə siyasi problem deyil - bu, iqtisadiyyatı, energetikanı, logistikanı çökdürə biləcək riskə çevrilib. Bu yeni dövrdə sabitlik artıq üstünlük deyil, məcburi şərtdir. Həm də buna görə Azərbaycan bu gün Avrasiyanın təhlükəsizlik arxitekturasında əvəzolunmaz mövqe qazanır. Rəsmi Bakı 2020-ci ildən sonra regionda yaratdığı yeni reallıqla Cənubi Qafqazda təhlükəsizlik konturlarını tamamilə yenidən formalaşdırdı. Bölgədə artıq müharibə riski demək olar ki, aradan qaldırılıb, separatizm məhv edilib. Ən əsası, Ermənistanın destruktiv siyasətdən uzaqlaşması üçün real mexanizm formalaşdırılıb. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi təkcə hərbi gücə əsaslanmır; bu fəlsəfə iqtisadi əlaqələr sisteminin qurulmasını, enerji davamlılığını və kommunikasiya marşrutlarının şaxələndirilməsini özündə ehtiva edir. İki qitənin qovşağında yerləşən Azərbaycan həm Avropanın enerji təchizatında, həm də Orta Dəhliz boyunca yüklərin təhlükəsiz daşınmasında əsas zəmanətçi ölkə kimi qəbul edilir. Sabitliyin zərurət olduğu coğrafiyada dünyanın güclü aktorları - Avropa İttifaqı, Çin, Türkiyə, Mərkəzi Asiya ölkələri Azərbaycanla əməkdaşlığı prioritet elan edirlər. Çünki bu əməkdaşlıq təkcə iqtisadi deyil, həm də təhlükəsizlik baxımından əsaslı mexanizm formalaşdırır. Bu, Azərbaycanın Avrasiyanın strateji mərkəzi statusunun əsas şərtlərindən biridir: Bakı təkcə coğrafi mərkəz deyil, həm də təhlükəsizlik məntiqinin mərkəzidir. Ursula Fon der Lyayenin fikirləri bu tezisin doğruluğunu ortaya qoyur: “Prezident Əliyev, Avropa İttifaqı bu regionun parlaq gələcəyinə inanır. Beləliklə gəlin, dinc Cənubi Qafqaz naminə, Avropaya, Xəzər regionuna və Mərkəzi Asiyaya bağlantısı olan Cənubi Qafqaz naminə, aramızdakı həmişəkindən daha güclü tərəfdaşlıq naminə birlikdə çalışaq”.

**Azərbaycan dialoqu praktiki əməkdaşlıq modeli kimi reallaşdırır**

Avropa Komissiyasının Bakıya, Prezident İlham Əliyevə xitabən səsləndirliyi bu müraciətin altında uzun illərə söykənən bir sıra məsələlər toplanır:

- Qlobal dünya Prezident İlham Əliyevin yürütdüyü siyasətin düzgün olduğunu, gələcək, hətta qlobal inkişafa yönəldiyini, qitələrarası münasibətlərin sistemləşdirilməsində nümunəvi olduğunu bir daha təsdiqləyir:
- Qlobal dünya Azərbaycanın bölgədə formalaşdırdığı yeni situasiyanın birləşdirici funksionallıq daşıdığını etiraf edir:
- Qlobal dünya uzun illərdir ki, fərqli qütblərə bölünərək rəqabət aparan Şərq ilə Qərbin məhz Azərbaycan vasitəsilə birləşmə imkanını, əməkdaşlıq etmək imkanını etiraf edir.

Bu, olduqca mühüm bir məqamdır. Müasir dövrdə “dialoq” sadəcə diplomatik termin deyil, həm də sivilizasiyaların bir-birini anlamaq, mədəniyyətlərin qarşılıqlı inteqrasiya imkanı qazanmaq, xalqların birgəyaşayış fəlsəfəsini formalaşdırmaq üçün əsas platformadır. Qlobal böhranların, siyasi gərginliklərin, geosiyasi parçalanmaların sürətlə artdığı bir vaxtda dövlətlər arasında etimadın bərpası, fərqli ideoloji sistemlər arasında körpülərin qurulması həyati vacib zərurətə çevrilir. Bu mənada Bakı artıq uzun illərdir ki, sivilizasiyalararası dialoq və əməkdaşlıq məkanının ən nüfuzlu mərkəzlərindən biri kimi çıxış edir. Prezident İlham Əliyev hətta qlobal məkanda rəqib sayılan ölkələri belə vahid ideya uğrunda bir platformada birləşdirir. Bunun ən bariz nümunəsi Azərbaycan tərəfindən keçirilən Qlobal Bakı Forumu, Humanitar Zirvə, BMT Sivilizasiyalar Alyansının yüksək səviyyəli tədbirləri, Türk Dövlətləri Təşkilatının toplantılarıdır - burada hətta fərqli ideoloji baxışa malik ölkələrin rahat dialoq qurmaq imkanı vardır. Azərbaycanın dialoqu sadəcə ideoloji konsepsiya kimi deyil, praktiki əməkdaşlıq modeli kimi reallaşdırır. Bu model nəticə verir - bölgədə siyasi proseslər daha rasional xətt üzrə hərəkət edir, ölkələr arasında etimad artır, iqtisadi layihələr isə daha geniş miqyas qazanır.

*Pərviz SADAYOĞLU*

# Terrorizm bəşəriyyət üçün ciddi təhdid olaraq qalır

## Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyir

Azərbaycan beynəlxalq antiterror koalisiyasının fəal üzvü olaraq bəşəriyyətə, humanizmə təhlükə yaradan fəaliyyətlərə qarşı daim aktiv mübarizə aparıb. Terrorçuluq, eləcə də onu doğuran təzahürlər, o cümlədən, ekstremist və kriminal strukturlar dövlətlərin sabitliyinə və milli mənafelərinə başlıca təhdidlərdir. Bu baxımdan, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında təhlükəsizlik orqanları və kəşfiyyat xidmətləri tərəfindən təhlükə barədə əldə edilmiş qabaqlayıcı məlumatların vaxtında tərəfdaşlara ötürülməsi mühüm əhəmiyyət kəsb edir.

**Diplomat: Terrorizm heç bir şəraitdə və ya bəhanə ilə əsaslandırıla bilməz**

Yeri gəlmişkən, bugünlərdə BMT Baş Assambleyasında “BMT-nin Qlobal Terrorizmlə Mübarizə Strategiyası” mövzusunda plenar iclas keçirilib. İclasda çıxış edən Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev bildirib ki, terrorizm regional və beynəlxalq sülh, təhlükəsizlik və sabitlik üçün ciddi təhdid olaraq qalır: “Dünyanın bəzi bölgələrində, o cümlədən regionumuzda terrorizmdən ərazi iddialarını irəli sürmək, separatizmi qızışdırmaq və suveren dövlətlərə qarşı təcavüzü dəstəkləmək məqsədilə müharibə vasitəsi kimi istifadə olunub. Bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və birliyinə hörmət bir daha təsdiqlənməlidir. Terror aktlarını törədən şəxslərin məsuliyyətə cəlb edilməsi prioritet olaraq qalmalı, cəzasızlığa qarşı sıfır tolerantlıq nümayiş etdirilməlidir”. Onun sözlərinə görə, Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyir. Terrorizm heç bir şəraitdə və ya bəhanə ilə əsaslandırıla bilməz.

Çıxışının sonunda Tofiq Musayev qeyd edib ki, BMT-nin Qlobal Terrorizmlə Mübarizə Strategiyasının səmərəli icrası prioritet olaraq qalır və bu məqsədə yalnız səmimi beynəlxalq əməkdaşlıq, tərəfdaşlıq və həmrəylik sayəsində nail olmaq mümkündür.

Məlumdur ki, hazırda terrorçuluğa qarşı mübarizə dünya üzrə ən aktual çağırışlardan birinə çevrilib. Artan narahatlıqlar onunla bağlıdır ki, terrorçuluğun coğrafiyası getdikcə genişlənir və onun məzmunu daha da aqressivləşir. Əksər hallarda isə belə əməllərin qurbanları sadə insanlar olurlar. Siyasi, iqtisadi, humanitar, kibertəhlükəsizlik və digər məzmunlu terrorizm əməllərini fərqləndirmək mümkündür. Azərbaycanın terrorizmə qarşı mübarizəsi sistemli səciyyə daşıyır. Aparılan ardıcıl mübarizə həm cəmiyyətimizin xarakterinə və istəyinə, həm də dövlətin güclü siyasi iradəsinə əsaslanır. Ölkəmiz terrorçuluğa qarşı beynəlxalq mübarizə sahəsində qlobal səylərə fəal töhfə verir. ABŞ-da törədilmiş 11 sentyabr 2001-ci il tarixli terror hadisələrindən sonra Azərbaycan terrorçuluğa qarşı beynəlxalq koalisiyanın fəal üzvlərindən birinə çevrilib. Bu istiqamətdə beynəlxalq çağırışlara cavab olaraq Azərbaycan öz hava məkanını və hava limanlarını beynəlxalq antiterror koalisiyası üzvlərinin üzünə açıb.

**Milli qanunvericilik təkmilləşdirilir**



Paralel şəkildə, terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericilik davamlı olaraq beynəlxalq öhdəliklərə uyğunlaşdırılır. Hazırda respublikamız terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyanın hamısına tərəf olaraq qoşulub. Milli qanunvericiliyin davamlı şəkildə təkmilləşdirilməsi institusional islahatlarla dəstəklənir. Respublikamızda müvafiq sahədə əsas səlahiyyətli dövlət qurumları Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətidir. Hüquqmühafizə qurumları ilə yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti qurumlar tərəfindən terrorçuluğa qarşı mübarizədə preventiv və sosial xarakterli tədbirlər görülür və fəaliyyətlər uzlaşdırılır.

Digər ölkələrlə imzalanan ikitərəfli, üçtərəfli və çoxtərəfli sazişlərlə yanaşı, Azərbaycan terrorçuluğa qarşı mübarizə sahəsində regional və beynəlxalq əməkdaşlıq mexanizmlərində də fəal iştirak edir. Ölkəmizin terrorçuluğa qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında BMT-nin Terrorçuluqla Mübarizə İdarəsini, ATƏT-in Transmilli Təhdidlər Deparlamentini, eləcə də GUAM, Avropa İttifaqı, MDB, Şanxay Əməkdaşlıq Təşkilatını və digərlərini qeyd edə bilərik.

Azərbaycanı terrorizmə qarşı sistemli mübarizə aparmağa sövq edən əsas amillərdən biri də ondan ibarətdir ki, ölkəmiz də terrordan əziyyət çəkən dövlətlər sırasında yer alır. Ermənistanın bilavasitə təşəbbüsü, təşkilatçılığı və iştirakı ilə Azərbaycanın ərazisində törədilən, minlərlə insan itkisinə səbəb olan terror fəaliyyətinə dair kifayət qədər əsaslı dəlillər mövcuddur.

**Bu gün ölkəmiz təhlükəsizlik və sabitlik adasıdır**

Azərbaycan torpaqlarında dəfələrlə terror aktları törədib. Təəssüf ki, bu terror aktlarının təşəbbüskarlarının və iştirakçılarının bir çoxu hələ də azadlıqdadırlar və qanun qarşısında cavab verməyiblər. 1994-cü il martın 19-da və iyulun 3-də Bakı metropolitenində dəhşətli terror hadisələri törədildi. 44 günlük Vətən müharibəsi dövründə Ermənistan tərəfindən Silahlı Qüvvələrimizə qarşı muzdlular və əcnəbi terrorçu döyüşçülərdən istifadə edildi və xarici ölkələrdə fəaliyyət göstərən erməni diaspor təşkilatları tərəfindən öz xeyriyyə və qeyri-kommersiya statuslarından sui-istifadə edilərək suveren ərazilərimizdə terror fəaliyyətlərinin maliyyələşdirilməsi üçün külli miqdarda ianələr toplanıldı. Ermənistan 30 illik işğal dövründə, həmçinin ekologiyamıza, təbii sərvətlərimizə, tarixi abidələrimizə qarşı dövlət səviyyəsində terror siyasəti həyata keçirib.

Mürəkkəb geosiyasi məkanda olmasına baxmayaraq, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində aparılan qətiyyətli işlər Azərbaycana beynəlxalq arenada investisiya və turizm üçün cəlbedici ölkə, “təhlükəsizlik və sabitlik adası” imicini qazandırıb.

*Nardar BAYRAMLI*

# 32 il ötdü...

## Erməni vandalizminin qanlı izləri - metro terroru




20-ci əsrin sonlarında ölkəmizə qarşı həyata keçirilən terror aktları ölkənin mülki əhalisini hədəf alan ən ağır cinayətlərdən biri idi. Xüsusilə, Birinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı illərdə müxtəlif terror aktları nəticəsində yüzlərlə günahsız insan həlak olub, minlərlə insan yaralanıb. Bu hücumların məqsədi cəmiyyət arasında qorxu yaratmaq, ölkədə sabitliyi pozmaq və siyasi təzyiq göstərmək idi.

**10 il ərzində 2 mindən çox qurban...**

İfrat millətçilik əhval-ruhiyyəsindən doğan və "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni terrorizmi daim ermənilərin dəyişən siyasi məqsədlərinə uyğunlaşırdı. 1980-ci illərdə Ermənistanın Qarabağ bölgəsinə qarşı qanunsuz və əsassız ərazi iddialarının ortaya çıxması ilə, erməni terror təşkilatlarının fəaliyyəti Azərbaycana yönəldi. 1980-ci illərin ikinci yarısı erməni terrorçularının ölkəmizin ərazisində əsasən sərnişin avtobuslarının və metro qatarlarının partlayışları ilə müşahidə olunan terror aktları ilə qeydə alınmışdı. 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində törədilən bu terror aktları 2 mindən çox insanın ölümünə səbəb olmuşdu.



**1 ildə 2 terror aktı**

1994-cü illərdə xalqımıza qarşı terror aktları snayper hücumları və ya yaxınlıqdakı çaylara atılan partlayıcı oyuncaqlar şəklində davam edirdi. Əsas qurbanlar isə qadınlar, uşaqlar və qocalar idi.

Təkcə 1994-cü ildə Bakı metropolitenində vətəndaşlarımıza qarşı iki terror aktı törədilib. Həmin il martın 19-u saat 13:00-da 20 Yanvar metrostansiyasında partlayış baş verdi. Qatarın baş vaqonuna qoyulmuş saat mexanizmli əldə düzəltmə bomba qatar stansiyada dayandıqdan sonra partlayıb. Partlayış nəticəsində 14 nəfər həlak olub və 49 nəfər yaralanmışdı.

**13 ölü, 58 yaralı...**

1994-cü il iyulun 3-də isə Bakı metrosunda ikinci terror hadisəsi yaşandı. Bu gün sözügedən faciəli hadisədən 32 il ötür. Həmin gün saat 20:30-da metronun "28 May" stansiyasından "Gənclik" stansiyası istiqamətində hərəkət edən qatarın platformaya çatmasına 500 metr qalmış qatarın ikinci vaqonunda partlayış baş verib. Partlayışdan sonra qatarda yanğın başlayıb. Terror aktı nəticəsində 13 nəfər həlak olub, 58 nəfər isə yaralanmışdı.

Partlayışın təşkil edilməsi ilə əlaqədar Moskvada yaşayan Azərbaycan vətəndaşı Azər Aslanov həbs olunub. O, 1997-ci ilin 29 noyabr tarixində Azərbaycana ekstradisiya edilib. Azər Aslanov ifadəsində bildirib ki, o, Bakı metropolitenində terror aktı törətmək göstərişini erməni əsirliyində olarkən, erməni yazıçı Zori Balayandan alıb. Məhkəmənin hökmü ilə Azər Aslanov ömürlük həbs cəzasına məhkum edilib.

İstintaq nəticəsində müəyyən edilib ki, 1994-cü il yanvarın 13-də Qarabağda erməni əsirliyinə düşmüş Azər Aslanov Ermənistanda olarkən erməni xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilib. Belə ki, onu azad etmək bəhanəsi ilə 16 iyun 1994-cü ildə anası Tacibat Aslanova ermənilər tərəfindən İrəvana dəvət olunur, Azər Aslanova isə anasının girov olduğunu və onun azad olunması üçün Aslanovun Bakı metropolitenində partlayış təşkil etməli olduğu bildirilir. Bundan sonra 3 iyul 1994-cü ildə, İrəvan-Mineralniye Vodi-Bakı marşrutu ilə A.Aslanov erməni xüsusi xidmət orqanlarının hazırladıqları saxta sənədlərlə Azərbaycana gəlir, terror aktını törədir və Ermənistana qayıdır. Yalnız bundan sonra onun girovluqda saxlanılan anası azad edilir və onlar Ermənistanı tərk edirlər.

Terror aktının təlimatçıları, Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları, polkovnik Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olublar. A.Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılıb, 1999-cu ildə Azərbaycanın Baş Prokurorluğunun təqdimatı əsasında Z.Balayan İnterpolun xətti ilə beynəlxalq axtarışa, sonra isə MDB dövlətlərində beynəlxalq axtarışa verilib. 2001-ci ildə erməni tərəfinin müraciəti əsasında İnterpol Z.Balayanı axtarışda olan şəxslər siyahısından çıxarıb.

***Yeganə BAYRAMOVA***

# Mərkəzi Bank qaydaları dəyişdi

## Məsafədən kredit almaq imkanları yaradılacaq

Mərkəzi Bank (MB) kredit risklərinin idarə edilməsi qaydalarına dəyişiklik edib. Qaydalara əsasən, bank müştərinin yazılı müraciəti ilə ona istehlak krediti müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə bütün satış kanalları vasitəsilə məhdudiyyət qoymaq imkanı yaradılacaq. Müvafiq məhdudiyyət həmin müştərinin bankda fiziki iştirakı, gücləndirilmiş elektron imzası və ya gücləndirilmiş müştəri autentifikasiyası yolu ilə təqdim etdiyi yazılı müraciəti əsasında aradan qaldırıla biləcək.

**Minimum əmək haqqının 2 mislinədək...**

Məsafədən bank sxeminə əsasən, bank istehlak kreditinin verilməsi zamanı kredit müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə borcalanın tətbiq etdiyi məhdudiyyətin olmaması öz informasiya sistemi vasitəsi ilə müəyyən etdikdə, məhdudiyyətin olub-olmamasını kredit bürosunun informasiya sistemi vasitəsilə də yoxlamalı və nəzərə almalıdır.

İstehlak krediti üzrə müvafiq məhdudiyyətin mövcud olduğu şəxslə istehlak krediti müqaviləsinin məsafədən bağlanmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə yol verilməyəcək.

Bununla yanaşı, yuxarıda nəzərdə tutulan məhdudiyyəti tətbiq etmiş şəxsdən istehlak krediti müqaviləsinin məsafədən bağlanması və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsi üçün müraciət aldıqda bu barədə müştərini mobil tətbiq və ya SMS məlumatlandırma vasitəsi ilə dərhal məlumatlandıracaq.

Məsafədən istehlak krediti müqaviləsinin bağlanması və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsi zamanı müraciət edən şəxs əvvəlcədən məlumatlandırılmaqla gün ərzində verilən və ya artırılan vəsaitin məbləği minimum əmək haqqının 2 mislinədək vəsaiti rəsmiləşdirəcək. Yaxud onun ekvivalentinədək olduqda müqavilə bağlandığı və ya müqaviləyə dəyişiklik edildiyi andan 2 saat sonra məbləğin verilməsi təmin ediləcək. Həmçinin gün ərzində verilən və ya artırılan vəsaitin məbləği minimum əmək haqqının 2 mislindən və ya onun ekvivalentindən çox olduqda müqavilə bağlandığı və ya müqaviləyə dəyişiklik edildiyi andan 24 saat sonra kreditləşmə təmin olunacaq. Bundan əlavə, istehlak krediti müqaviləsinə kreditin verildiyi və ya kredit limitinin artırıldığı halda borclunun verilmiş kredit üzrə öhdəlikdən azad edilməsi ilə bağlı müddəa daxil ediləcək.

Həmçinin, məsafədən rəsmiləşdirildiyi halda istehlak krediti müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə dair borcalanın tətbiq etdiyi məhdudiyyətin olub-olmaması barədə məlumat da kredit dosyesi ümumi sənədlər siyahısında öz əksini tapacaq. Bu qaydalar bank olmayan kredit təşkilatlarına şamil ediləcək.

**Kredit Bürosu kreditləşməyə icazə və ya imtina verəcək**

Mövzunu şərh edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, dəyişikliklər məsafədən maliyyə xidmətləri sahəsində risklərin azaldılması və istehlakçıların hüquqlarının qorunmasının gücləndirilməsi istiqamətində normativ bazanın təkmilləşdirilməsi ilə bağlıdır. Cari ilin oktyabrından qüvvəyə minəcək dəyişikliklərə əsasən, müştərilərə məsafədən istehlak krediti müqavilələrinin bağlanmasına və kredit limitlərinin artırılmasına qarşı könüllü məhdudiyyət tətbiq etmək imkanı yaradılır. Yəni riskləri nəzərə alaraq vətəndaş özü məsafədən kredit təklifini məhdudlaşdıra biləcək. Bu zaman, istənilən vətəndaş Azərbaycan Kredit Bürosu üzərindən sorğu yerləşdirməklə bütün kredit təşkilatlarında məsafədən kredit rəsmiləşdirilməsinə qadağa qoya biləcək. Yeni dəyişikliklərə əsasən, vətəndaşlar müştərisi olduqları kredit təşkilatına birbaşa müraciət etməklə yalnız həmin təşkilata məhdudiyyət tətbiq edə biləcəklər. Kredit təşkilatları məsafədən kredit rəsmiləşdirilmədən öncə bu qadağanı yoxlamalı və yalnız məhdudiyyət qoyulmadığı halda krediti verməlidirlər.




Millət vəkili hesab edir ki, Mərkəzi Bank tərəfindən məsafədən kredit ilə bağlı qadağaların tətbiqi müsbət addım olsa da, bu, daha çox ənənəvi yanaşmadır. "Aydındır ki, bu qadağaların tətbiqinə səbəb məsafədən kredit rəsmiləşdirilməsi adı altında hakerlərin bir sıra hallarda vətəndaşları aldadaraq vəsaitlərini mənimsəməsidir. 2024-2025-ci illəri əhatə edən dövrdə kiberdələduzluq və haker hücumları nəticəsində ümumilikdə 22 milyon manatlıq maliyyə oğurluğu baş verib və 17 minə yaxın dələduzluq məqsədli bank kartı əməliyyatı qeydə alınıb. Bütün bunlar, qadağalar ilə yanaşı və yəqin ki, onlardan daha çox vacib olan təhlükəsizlik sistemlərinin daha da gücləndirilməsini aktuallaşdırıb. Azərbaycan Kredit Bürosu üzərindən bu məsələ ilə bağlı sorğu yerləşdirənlərin sayının çox olacağını proqnozlaşdırmaq çətindir. Belə olan halda, qadağa hüququndan istifadə edəcək vətəndaşlarımızın statistikası yeni qaydaların hansı formada səmərəli olduğunu göstərəcək".

İqtisadçı vacib məqamlardan biri kimi vətəndaşların bu istiqamətdə maarifləndirilməsini vacib sayır. "Vətəndaşlar arasında maliyyə və bank xidmətləri ilə bağlı maarifləndirmə genişlənməyincə hakerlər istənilən imkanlardan yararlanmağa çalışacaqlar. Maarifləndirmə isə yalnız Mərkəzi Bank tərəfindən deyil, fərqli və xüsusən də müstəqil steykholderlər tərəfindən həyata keçirilməlidir".

***E.CƏFƏRLİ***

# Dohada dolayı görüşlər...

## Atəşkəs davam edir - növbəti görüş hazırlığı...

Yaxın Şərqdə münaqişənin tam bitməsi istiqamətində gedən danışıqlarda müsbət tendensiya davam edir. Qətər Xarici İşlər Nazirliyinin sözçüsü Məcid bin Məhəmməd əl-Ənsari sosial mediada bildirib ki, Dohada ABŞ-İran dolayı danışıqlarında atəşkəs memorandumu ilə bağlı məsələlərdə irəliləyiş əldə edilib. Xarici İşlər Nazirliyinin sözçüsü qeyd edib ki, Qətər və Pakistandan olan vasitəçilər Dohada



ABŞ və İran nümayəndə heyətləri ilə ayrı-ayrılıqda görüşlər keçiriblər və bu görüşlər zamanı İslamabad Anlaşma Memorandumu ilə bağlı məsələlərdə müsbət irəliləyiş əldə olunub. Onun sözlərinə görə, tərəflər yaxın gələcəkdə müzakirələri davam etdirmək barədə razılığa gəliblər. Növbəti görüş İranın keçmiş ali lideri Əli Xameneinin dəfn mərasimindən sonra mümkün qədər ən tez müddətdə baş tuta bilər.

Qeyd edək ki, ABŞ və İran sülh memorandumunun bütün bəndləri üzrə danışıqları davam etdirəcəklərini bildirirlər. Sülh memorandumunda hərbi əməliyyatların dayandırılması, 60 gün ərzində yekun razılaşma üzrə danışıqlar, ABŞ məhdudiyyətlərinin tədricən qaldırılması, Hörmüz boğazının açılması və İranın nüvə proqramının müzakirəsi nəzərdə tutulur.

**ABŞ nümayəndə heyəti Qətər rəsmiləri ilə görüşüb**

Vurğulandığı kimi, hər iki münaqişə tərəfi ayrı-ayrılıqda vasitəçilərlə görüşüblər. ABŞ Prezidentinin xüsusi nümayəndələri Stiv Vitkoff və Cared Kuşner Qətərin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Əl-Tani ilə görüşündə ölkələrinin danışıqları davam etdirməyə və İranla münaqişənin diplomatik həllini dəstəkləməyə sadiq olduğunu dilə gətiriblər. "X" sosial media paylaşımında qeyd olunub ki, "Hər iki ABŞ nümayəndəsi Qətərə minnətdarlıqlarını bildiriblər. ABŞ-ın danışıqlar prosesini davam etdirmək və hərtərəfli razılaşmaya nail olmaq üçün diplomatik səyləri dəstəkləmək öhdəliyini vurğulayıblar".

CNN-in məlumatına görə, Vitkoff və Kuşnerin Dohada İran nümayəndələri ilə də görüşməsi planlaşdırılırdı. "Bloomberg"in məlumatına görə isə, amerikalılar Qətərdə regional liderlərlə "müsbət danışıqlar" aparıblar. Agentlik qeyd edir ki, ölkələr son hücumlardan sonra gərginliyi azaltmağa çalışdıqca İranla texniki danışıqlar irəliləyir.

**Vensi təəccübləndirdi...**

"İranın texniki səviyyəli danışıqları inkar etməsi Tehranın qıcıqlandırıcı ritorik taktikasıdır". Bunu isə ABŞ-ın vitse-prezidenti C.D.Vens "The Michael Knowles Show" verilişində bildirib. "İranlılarda məni həm təəccübləndirən, həm də qıcıqlandıran bir şey var. ABŞ və İran arasında sülh müqaviləsi üzrə texniki danışıqlar aparılsa da, onların "xeyr, xeyr, sülh danışıqları yoxdur" demələridir", - Vens bildirib. Vitse-prezident əlavə edib ki, o, bu "fars ritorik taktikasını" başa düşmür.



Qeyd edək ki, iyunun sonunda planlaşdırılan görüşlərdə İran ilə ABŞ-ın birbaşa təması da nəzərdə tutulurdu. Lakin İran tərəfi amerikalılarla heç bir görüşün planlaşdırılmadığını bildirdilər - vurğulandı ki, tərəflər Qətər vasitəçiləri ilə görüşəcəklər. "Reuters"in yaydığı məlumatda İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqayinin "Yaxın günlərdə Amerika tərəfi ilə heç bir səviyyədə görüş planlaşdırılmır", - deyə bildirdiyi qeyd olunurdu.

**Riayət olunmasa, müharibə qaçılmazdır...**

Bu arada bəzi Qərb mətbuatı müharibənin yenidən başlanma ehtimalını istisna etmir. İyunun sonlarında ABŞ-İran arasında baş verən qısamüddətli hücumlardan sonra ABŞ Prezidenti Donald Trampın tammiqyaslı hücumlara davam etməyə meylli olduğu bildirilir, lakin yüksək vəzifəli hərbi rəsmilərlə söhbətlərdən sonra diplomatiya yolu davam edirilib. The Wall Street Journal (WSJ) bu barədə ABŞ rəsmilərinə istinadən məlumat yayıb. Onların sözlərinə görə, Tramp görüşlər zamanı ABŞ-ın danışıqlardan imtina edib İrana qarşı tammiqyaslı hücumlara davam edib-etməməsi barədə müzakirə aparıb - bəzi rəsmilər bu addımı "işin bağlanması" kimi təsvir edirlər. WSJ xəbər verir ki, o, yekun qərar verməzdən əvvəl köməkçilərinə yeni kütləvi zərbələrin diplomatiyanı sarsıda və Vaşinqtonun İranın nüvə proqramını ləğv etmək şansını azalda biləcəyini bildirib.

ABŞ rəsmiləri həmçinin bildiriblər ki, Tramp nüvə sazişi üçün 18 avqustadək olan son tarixdən sonra Tehranla danışıqlara açıq olacaq və daha çox vaxt verəcək. ABŞ rəsmilərinin sözlərinə görə, Tramp müntəzəm olaraq İranla bağlı görüşlər keçirir, lakin son müzakirələr çıxılmaz vəziyyətdən çıxış yolu axtarmağa işarə edir, çünki münaqişənin yenidən başlaması İran sazişinin uğursuzluğunun "gizli etirafı" olardı. Eyni zamanda, prezident açıq şəkildə danışıqların uğurlu olduğunu elan edib, lakin saziş uğursuz olarsa, zərbələrin bərpa olunması ehtimalını şərtləndirir. WSJ yazır ki, Pentaqon rəhbəri Pit Heqset və hərbi rəis Den Keyn İranın hərbi hədəflərinə kütləvi hava hücumlarının bərpası üçün variantlar təqdim etsələr də, Donald Tramp hücumları davam etdirməkdən imtina edib.

**Keçmiş müşavirdən müharibə mesajı...**

Trampın keçmiş müşaviri də İranla münaqişənin yeni mərhələsinə hazırlaşmağa çağırış edib. "New York Post" xəbər verir ki, Donald Trampın keçmiş müşaviri, istefada olan general-leytenant Keyt Kelloq ABŞ prezidentini amerikalıları İranla mümkün ikinci raund münaqişəsi barədə xəbərdar etməyə çağırıb. O, Tehranla danışıqların İran siyasətində dəyişikliyə səbəb olacağına şübhə ilə yanaşıb və deyib ki, ABŞ hərbi və iqtisadi tədbirlər də daxil olmaqla, təzyiqləri artırmağa hazır olmalıdır. Diplomatiya işə yaramasa, Kelloq İranın əsas neft mərkəzlərindən biri olan Xarq adasına zərbə endirməyi təklif edib.

Kelloqun fikrincə, Tramp əvvəlcə diplomatiyaya güvənməkdə haqlı idi, lakin İslam İnqilabı Keşikçiləri Korpusu əhəmiyyətli təsirini saxlayır, ona görə də Vaşinqton İranın nüvəsizləşdirilməsinə və rejimi zəifləməyə çalışmalıdır.

**SADİQ**

# Çərçivə sazişi sülhü təmin edəcəkmi?

## Vaşinqton Livan və İsrailin razılaşmalara əməl edəcəyinə nikbin yanaşır

### İsrail ordusu Livan ərazisini tərk edəcəkmi?

İsrail və Livan arasında razılaşmaya dair çərçivə sazişi İsrail qoşunlarının respublika ərazisindən tədricən çıxarılmasını nəzərdə tutur. Sənəd münaqişəyə son qoyulmasını, Livanın bütün ərazisi üzərində tam suveren nəzarətinin bərpasını, eləcə də qeyri-dövlət silahlı qruplarının tərksilah edilməsini və onlarla əlaqəli infrastrukturun ləğvini nəzərdə tutur. Bu şərtlər yerinə yetirildikdən sonra İsrail qüvvələri mərhələli şəkildə ölkədən çıxacaq. Təhlükəsizlik tədbirləri və nəzarət mexanizmləri də daxil olmaqla, prosesin təfərrüatları ABŞ-ın dəstəyi ilə hazırlanmış ayrıca bir əlavədə göstəriləcək. Saziş, həmçinin hazırda İsrail qüvvələrinin əlində olan iki ərazinin nəzarətinin Livan hakimiyyətinə verilməsini nəzərdə tutur. Onların dəqiq yeri açıqlanmır. Sənəddə vurğulanır ki, "Hizbullah" da daxil olmaqla silahlı qrupların yaratdığı təhlükənin aradan qaldırılması gələcəkdə İsrail Müdafiə Qüvvələrinin Livandakı mövcudluğunu aradan qaldırmağa imkan verəcək.



Livan Prezidenti Cozef Aun Vaşinqtonda İsraillə imzalanan çərçivə sazişini alqışlayaraq, bunu hərbi əməliyyatların tam dayandırılması və ölkənin cənub bölgələri üzərində suverenliyinin bərpası istiqamətində atılan ilk addım kimi qiymətləndirib. Livan Prezidenti İsraillə ikitərəfli danışıqların beşinci raundunun yekununda əldə olunan sənədi şərh edərkən bildirib ki, bu saziş Livan xalqına heç bir güzəştə getmədən tam azad edilmiş torpaqlarına qayıtmaq imkanı verir və müharibədən sonrakı bərpa prosesinə başlamağa şərait yaradacaq. Cozef Aun danışıqların təşkili və keçirilməsi istiqamətində göstərdiyi səylərə, eləcə də Livanın mövqeyinə verdiyi dəstəyə görə ABŞ Administrasiyasına və Prezident Donald Trampa təşəkkürünü bildirib.

ABŞ Dövlət katibi Marko Rubio Vaşinqtonda İsrailin səfiri Yexiel Leyter və Livanın səfiri Nada Həmmadə-Muavvad ilə birgə çıxışı zamanı tərəflər arasında 5 raund danışıqlardan sonra çərçivə sazişinin əldə olunduğunu elan edib. Onların sözlərinə görə, bu sənəd İsrail ilə "Hizbullah" arasında baş vermiş münaqişədən sonra sülhə aparan yolun əsasını qoyur.

Bununla yanaşı, Livanda atəşkəsin həyata keçirilməsinə nəzarət məqsədilə İran, ABŞ və Livan üçtərəfli işçi qrupu yaratmağı planlaşdırır. Bu barədə İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf dövlət televiziyasına müsahibəsində məlumat verib. Onun sözlərinə görə, Livanın dövlət suverenliyinin təmin olunması məqsədilə İran, ABŞ və Livan nümayəndələrinin təmsil olunacağı birgə komitə fəaliyyət göstərəcək. Qalibaf bildirib ki, İranın Livandakı səfiri də komitədə ölkəsini təmsil edəcək. Parlament sədri qeyd edib ki, Tehran və Vaşinqton Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dərhal dayandırılmasını nəzərdə tutan anlaşma memorandumu imzalayıblar.

### Üçtərəfli işçi qrupu yaradılacaq

Livan isə İsraillə əldə olunmuş "çərçivə sazişi"nin, xüsusilə də ərazisindən razılaşdırılmış geriçəkilmələrin həyata keçirilməsini təmin etmək üçün ABŞ-ın köməyinə arxalanır. "əş-Şarq əl-Avsət" qəzeti öz mənbələrinə istinadla xəbər verib ki, İsrail tərəfinin prosesi təxirə salmağı, işğal etdiyi yerlərdə müvəqqəti keçid qapıları təşkil etmək kimi razılaşmaya zidd addımlar atmağı planlaşdırması barədə gələn xəbərlər Livan tərəfini narahat edir.

Mənbələrin sözlərinə görə, ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri Bred Kuper Livana son səfəri zamanı ölkə rəsmiləri ilə İsrailin geri çəkiləcəyi "pilot ərazilər"də tətbiq olunacaq mexanizmləri müzakirə edib. Bildirilib ki, onun yüksək vəzifəli köməkçilərindən biri prosesin icrasını yerində izləmək üçün Livanda qalıb. Qeyd olunub ki, Livan tərəfi ABŞ-la əldə edilmiş razılaşmalardan kənar hər hansı dəyişiklik və ya İsrailin geriçəkilməni təxirə salması ilə bağlı rəsmi məlumat almayıb.

Livan rəsmilərinin narahatlığına səbəb olan amillərdən biri də İsrail ordusunun ölkənin cənubunda nəzarətdə saxladığı ərazilərdə keçid qapıları quraşdırması və təhlükəsizlik zolağını Livanın daxili hissəsindən ayırması olub. Bu, 2000-ci ildən bəri ilk belə praktiki addım kimi qiymətləndirilir. Bundan əlavə, İsrailin müdafiə naziri İsrael Katsın ordunun Livanın cənubundan geri çəkilməyəcəyini bəyan etməsi Livanın narahatlıqlarını daha da artırıb. Hətta sözügedən sazişin imzalanmasından bir gün sonra İsrailin Livan ərazisinə yenidən hücum etməsi razılaşmaları şübhə altına alır.




### İsrail Livanın cənubunda təhlükəsizlik zonası saxlayacaq

İsrailin Baş naziri Benyamin Netanyahu isə İsrailin Livanın cənubunda təhlükəsizlik zonasını saxlamaq hüququnun Vaşinqton və Beyrut tərəfindən tanındığını bəyan edib. O, Livanla çərçivə sazişini tarixi hadisə adlandırıb və bunun münaqişənin dayandırılması işində irəliləyişə kömək etdiyini vurğulayıb. Baş nazirin sözlərinə görə, Livan hökuməti bu addımı atmaqla cəsarət nümayiş etdirib: "Bu, İran və "Hizbullah"a ciddi zərbədir. Əldə olunmuş razılaşmalar çərçivəsində ABŞ və Livan İsrailin təhlükəsizlik zonasını saxlamaq hüququnu tanıyıb. Mən İsrailin həyati vacib maraqlarını qətiyyətlə müdafiə edir və bizi oradan çıxmağa məcbur etmək üçün edilən hər hansı cəhdlərə qarşı qətiyyətlə çıxış edirdim".

Bununla yanaşı, o təsdiqləyib ki, pilot layihə çərçivəsində İsrail Livanın cənubunda yerləşən, biri təhlükəsizlik zonasının hüdudlarından kənarda, digəri isə onun sərhədində olan iki zonadan qoşunlarını çıxarmağı planlaşdırır: "İsrail və Livan "sarı xətt"in yaxınlığında, İsrail Müdafiə Qüvvələri tərəfindən tövsiyə edilən və "Hizbullah"ın ləğvi, habelə ərazinin Livan ordusunun nəzarətinə verilməsi üzrə pilot layihənin həyata keçiriləcəyi iki ərazi barədə razılığa gəlib". Bununla belə, Netanyahu bir daha təkrar edib ki, istənilən təhdidləri dəf etmək üçün İsrail Müdafiə Qüvvələri Livanda hərəkət azadlığına malikdir.

**N.BAYRAMLI**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Vətənə sədaqət və fədakarlıq nümunəsi

## Koroğlu Rəhimovun xatirəsi daim qəlblərdədir...



İyulun 3-ü xalqımızın qəhrəmanlıq salnaməsində öz igidliyi, Vətənə sonsuz sədaqəti və döyüş meydanlarında nümayiş etdirdiyi misilsiz şücaəti ilə əbədi iz qoymuş Milli Qəhrəman Koroğlu Rəhimovun anım günüdür. Koroğlu Rəhimov Vətənə sonsuz məhəbbəti və torpaqlarımızın azadlığı uğrunda göstərdiyi misilsiz igidliyi ilə xalqımızın yaddaşında əbədi yaşayan qəhrəmanlardandır. Onun həyat yolu gənc




nəslə vətənpərvərlik, cəsarət, mərdlik və fədakarlıq nümunəsi kimi bu gün də böyük hörmətlə xatırlanır.

31 oktyabr 1953-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. 1960-cı ildə Yaqublu kənd orta məktəbinə gedib. 1961-ci ailəsi ilə birlikdə ata-baba yurdları olan Qərbi Azərbaycanın Zəngibasar mahalının Sarıcalar kəndinə köçüb. Burada təhsilini başa vurduqdan sonra isə 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub.

1972-ci ildə hərbi xidmətə çağırılır. 1974-cü ildə Almaniyada hərbi xidmətini başa vurur və yarımçıq qalmış təhsilini tamamlayır.

Qəlbi Vətən eşqi ilə döyünən Koroğlu, Xocalı faciəsindən sonra könüllü olaraq 1992-ci il 17 mart tarixdə Milli Ordu sıralarına yazılıb. 1992-ci il 30 apreldə "N" saylı bölüyə komandir təyin edilən Koroğlunun şərəfli döyüş yolu başlayıb. 13 iyun 1992-ci ildə Buzluq, Çartaz, Erkəç kəndlərinin azad edilməsində bu bölüyün adı dillərə gəzib. Onlar 15 erməni yaraqlısını məhv edərək xeyli silah-sursat ələ keçiriblər. Koroğlu buradakı döyüşdə dörd faşisti şəxsən özü məhv edib. 14 iyunda isə cəsur döyüşçülər Mənəşlini də yaraqlılardan təmizləyiblər. 15 iyunda isə Başkənd erməni işğalçılarından təmizlənib. Bu əməliyyatlar nəticəsində Koroğlunun komandirlik etdiyi alay erməni qəsbkarlarının onlarla canlı qüvvəsini məhv edib, xeyli silah-sursat ələ keçiriblər. Bölüyün zəfər yürüşü davam edirdi. Madagiz və Gülüstan kəndləri də bir-birinin ardınca qəsbkarlardan təmizləndi.

Goranboy və Ağdərədə gedən digər qanlı döyüşlərdə iştirak edib. 1992-ci il iyul ayının 3-də Ağdərədə gedən qanlı döyüşlərin birində qəhrəmancasına həlak olub.

Ailəli idi, üç övladı yadigar qalıb: Rəhimov Rəşad Koroğlu oğlu, Rəhimov Samir Koroğlu oğlu, Rəhimova Ülviyyə Koroğlu qızı.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli, 203 nömrəli fərmanına əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borclarının şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə leytenant Rəhimov Koroğlu İsmayıl oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bakının küçələrindən birinə K.Rəhimovun adı verilib.

Koroğlu Rəhimov Vətənin taleyinin həll olunduğu ən çətin və məsuliyyətli dövrlərdə heç bir təhlükədən çəkinmədən ön cəbhədə döyüşərək, şəxsi mənafeyini deyil, xalqının gələcəyini və Azərbaycanın azadlığını hər şeydən üstün tutub. O, silahdaşlarına nümunə olub, göstərdiyi yüksək döyüş əzmi və sarsılmaz iradəsi ilə hərb tariximizdə adını qəhrəmanlıq nümunəsi kimi əbədiləşdirib.

Onun həyat yolu sübut edir ki, Vətən sevgisi yalnız sözlə ifadə olunan hiss deyil, əksinə, xalqın azadlığı və dövlətin müstəqilliyi naminə ən ağır sınaqlardan keçməyi, lazım gəldikdə isə bu müqəddəs amal uğrunda ən qiymətli nemət olan həyatdan belə tərəddüd etmədən keçməyi bacaran insanların mənəvi böyüklüyünü nümayiş etdirən ali dəyərdir. Məhz buna görə də Koroğlu Rəhimovun adı Azərbaycan tarixində əbədi yaşayacaq qəhrəmanlar sırasında xüsusi ehtiramla çəkilir.

Azərbaycan xalqı öz qəhrəman övladlarının xatirəsini daim uca tutur, onların Vətən uğrunda göstərdikləri misilsiz xidmətləri heç zaman unutmur. Koroğlu Rəhimov kimi igidlərin ömür yolu isə gənclərimiz üçün Vətənə bağlılığın, cəsarətin, mərdliyin və milli-mənəvi dəyərlərə sədaqətin ən parlaq örnəyi olaraq gələcək nəsillərin yaddaşında əbədi yaşayacaq.

***Yeganə BAYRAMOVA***

***İdman***

## Sandro Tonali "Tottenhem"ə transfer olunub



İtaliya millisinin yarımmüdafiəçisi Sandro Tonali karyerasını "Tottenhem"də davam etdirəcək. London təmsilçisi futbolçunun transferi ilə bağlı "Nyukasl"la razılıq əldə edib. Məlumata görə, transferin dəyəri 117 milyon avrodur. Sandro Tonali 2023-cü ilin yayında "Milan"dan 70 milyon avro qarşılığında "Nyukasl"a keçmişdi. 25 yaşlı yarımmüdafiəçi ötən mövsüm bütün turnirlərdə 53 oyunda meydana çıxıb, 3 qol vurub və 7 məhsuldar ötürmə ilə yadda qalıb.

## Adil Şükürov "Sumqayıt"da



"Sumqayıt" Futbol Akademiyasının direktoru vəzifəsinə təyinat baş tutub. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Bu vəzifəni Adil Şükürov icra edəcək. Qeyd edək ki, 48 yaşlı mütəxəssis daha öncə "Zirə", "Şüvəlan", "Kəpəz" və "Səbail" kimi klublarda baş məşqçi vəzifəsində çalışıb. Adil Şükürov həmçinin müxtəlif dönəmlərdə "Bakı" Futbol Akademiyasında, U-15 və U-17 millilərimizdə də məşqçi fəaliyyəti göstərib.

## Kapitan karyerasını bitirdi

Ekvador millisinin hücumçusu Enner Valensiya yığmadakı karyerasını başa vurub. Apasport.az xəbər verir ki, 35 yaşlı forvard bu qərarı DÇ-2026-nın 1/16 finalında Meksikaya 0:2 hesablı məğlubiyyətdən sonra açıqlayıb. Final fitindən sonra emosiyalarını cilovlaya bilməyən Valensiya meydanda diz çö-



kərək göz yaşlarına hakim ola bilməyib. Təcrübəli futbolçu yığma ilə vidalaşdığını bildirib: "Kədərliyəm, amma eyni zamanda rahatam. Çünki hər zaman Ekvador yığmasına sadiq olmuşam. Bu, millidəki son oyunum idi. Hamı ilə sağollaşdım. Çox qəmli gündür və vidalaşmağımın məhz bu cür olmasını istəməzdim".

Qeyd edək ki, Enner Valensiya 2012-ci ildən Ekvador millisində çıxış edirdi. O, yığmanın heyətində keçirdiyi 109 oyunda 49 qol vurub və 15 məhsuldar ötürmə edib. Hücumçunun aktivində 15 sarı və 2 qırmızı vərəqə var.

## "Qəbələ"dən "Şamaxı"ya




"Şamaxı" yeni mövsüm heyətini formalaşdırmaq üçün çalışmalarını davam etdirir. Apasport.az klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, bölgə təmsilçisi "Qəbələ" klubundan Okan Təhməzlini transfer edib. Yarımmüdafiəçi ilə iki illik müqavilə imzalanıb. Xatırladaq ki, "Şamaxı" daha əvvəl Sənan Muradlı ("Sumqayıt"), Emin Rüstəmov ("Karvan-Yevlax"), Uğur Cahangirov ("Karvan-Yevlax") və Ceyhun Bağırzadəni ("Qəbələ-2") kluba cəlb edib.

## Rumıniyalı müdafiəçi "Şəfa"da



"Şəfa" növbəti transferini reallaşdırıb. Bakı klubu müdafiəçi Andrey Fernando Draqunu heyətinə qatıb. Bu barədə Premyer Liqa təmsilçisinin mətbuat xidməti məlumat yayıb. 26 yaşlı rumıniyalı futbolçu ilə 1+1 illik müqavilə imzalanıb.

Draqu son olaraq "Unirea Sloboziya" klubunda çıxış edib. Karyerası ərzində isə "Vitorul Tarqu", "Botoşani" və "Universitatea Krayova" kimi komandaların formasını geyinib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4221**
**Sifariş: 846**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova